*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 70-74* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.70*

# XX əsr Azərbaycan poeziyasında məhəbbət lirikasının ənənədən gələn motivləri

**Əkrəm Həsənov**
İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: garibekrem@hotmail.com

**Annotasiya.** Ədəbiyyatın ənənəvi mövzuları içərisində eşq və sevginin tərənnümü xüsusi yer tutur. Klassik divan ədəbiyyatının ilk nümunələrindən tutmuş müasir bədii örnəklərə qədər sevgi motivi bütün əsərlərdən qırmızı xətlə keçir. Filosof şairlər dünyanın, insanın yaranma səbəbi kimi izah etdikləri eşqi bütün yönlərilə işləyib fərqli illüstrativ hekayələrdə, rəngarəng süjet və əhvalatlarda onun insan həyatına, tərbiyəsinə və s. təsirini göstərmişlər.
Azərbaycan poeziyasının, lirik şeirinin ənənələrindən söz açanda, heç şübhəsiz, ən çox işlənən sevgi, məhəbbət, eşq mövzusundan yan keçmək olmur. Çünki poeziyamızda sevgi lirikasının davamlı, güclü bir ənənəsi vardır. Bu ənənənin əsası klassik poeziyada yaranmışdır: Nizami Gəncəvinin “Xəmsə”sində, sayı az da olsa, bizə gəlib çatmış lirik şeirlərində, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin əsərlərində, nəhayət, *“Eşq imiş hər nə var aləmdə”,* – deyən Məhəmməd Füzulinin “Leyli və Məcnun”unda, Divanındakı qəzəllərdə…
Məqalədə Azərbaycan poeziyasında məhəbbət lirikasının ənənələrindən, onları yaradıcılıqlarında yaşadıb inkişaf etdirən şairlərin əsərlərindən bəhs edilmişdir. Tədqiqat zamanı tarixi-müqayisəli metoddan istifadə edilmişdir.
**Açar sözlər:** şeir, poeziya, sevgi motivləri, ənənə, şairin yanaşması

**Məqalə tarixçəsi:** göndərilib – 22.05.2024; qəbul edilib – 13.06.2024

# Traditional motives of love lyrics in 20th century Azerbaijani poetry

**Akram Hasanov**
Doctor of Philosophy in Theology, Associate professor
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS
E-mail: garibekrem@hotmail.com

**Abstract.** Among the traditional themes of literature, the praise of glory and love occupies a special place. From the first examples of classical diwan literature to modern artistic examples, the motif of love runs through all the works with a red line. Philosophical poets have worked with all aspects of love, which they explain as the reason for the creation of the world and human, and in different illustrative stories, colorful plots and stories and they have shown its influence to his human life, upbringing, etc.
When talking about the traditions of Azerbaijani poetry and lyric poetry, doubtless cannot avoid the topic of affection and love that is used the most. Because there is a continuous, strong tradition of love lyrics in our poetry. The basis of this tradition was created in classical poetry: in Nizami Ganjavi's “Khamsa”, in his lyrical poems that have come down to us, even though they are few in number, in the works of Imadaddin Nasimi, Shah Ismayil Khatai, and finally, in Muhammad

Fuzuli's "Leyli and Majnun", who said, "Love is everything in the world." and in the ghazals on his Diwan...
In the article talks about the traditions of love lyrics in Azerbaijani poetry, the works of poets who lived and developed them in their works. During the research was used the historical-comparative method.
**Keywords:** poem, poetry, love motives, tradition, poet's approach

**Article history:** received – 22.05.2024; accepted − 13.06.2024

## Giriş / *Introduction*

Azərbaycan şairləri eşqin mahiyyəti, fəlsəfəsi, insanı mənən saflaşdırması, qəlbi pisliklərdən arındırması haqqında dəyərli fikirlərin yer aldığı bədii örnəkləri qələmə almışlar. AMEA-nın müxbir üzvü Əlyar Səfərli Azərbaycan bədii şeirində təbliğ və tərənnüm edilmiş eşq anlayışının təsnifini verərkən yazırdı ki: *"Klassik ədəbiyyatımızda eşq əsasən platonik məna daşıyır. Maddi və mənəvi eşq bir-birindən seçilir. Bir var həqiqi eşq, bu klassik poeziyada ilahi eşqdir. Allahın bəndəsini sevməsi, bəndənin də Allahı sevməsi həqiqi eşq kimi mənalandırılır. Bir də var məcazi eşq. İnsanın insanı sevməsi. Bu da bəşəri eşq sayılır. Bir də var təbii eşq. Xalqın və bəndənin eşqi"* [9, s.113-114].

## Əsas hissə / *Main Part*

Azərbaycan poeziyasında eşqin ən böyük tərənnümçüsü, insan qəlbinin sevə bilmək məharəti və qabiliyyətini sözün əfsunu ilə dilləndirməyi bacaran, eşqin insan ağlı və zəkasının fövqündə ilahidəngəlmə bir töhfə olduğunu illüstrativ lövhələrlə canlandıran ən böyük qələm ustası Məhəmməd Füzulidir desək, yəqin ki, heç kəs etiraz etməz. Bu fikir əksər tədqiqatçıların əsərlərində də qeyd edilir. İngilis şərqşünası mister Gibb onu "qəlb şairi" adlandırmışdır. Görkəmli yazıçı-ədəbiyyatşünas Mir Cəlal Paşayev yazırdı: *"Azərbaycan ədəbiyyatında, lirikanın doğma ana dilində yaranmış əsl lirik şeirin böyük banisi və ölməz dahisi Məhəmməd Füzulidir. Doğrudur, onun başqa əsərləri də vardır, lakin Füzulinin dahiyanə sənət əsəri olan "Leyli və Məcnun"unda və qəzəllərində şairin dühası daha parlaq surətdə görünür. Bu, belə də olmalıdır, çünki Füzuli, hər şeydən əvvəl, qəlb şairidir. Özü də dəfələrlə qeyd edir ki, məndən tərif, tənqid şeiri istəməyin, məhəbbət şeiri istəyin: "Məndən Füzuli istəmə əşari mədhü zəmm, Mən aşiqəm, həmişə sözüm aşiqanədir"* [7, s.28].

Füzuli poeziyasında eşq, məhəbbət ali bir hissdir: onun real, ya məcazi olması çox da böyük bir əhəmiyyət daşımır. Füzuli eşqi kamil və intellektual eşqdir, ilahi eşqdir. Bu eşq kamil və safdır, hissi elementlərlə, adi cismani məhəbbətlə bağlı deyil, o, əxlaq kamilliyinə aparan yoldur. Dar mənfəətdən uzaqdır. Nəyi isə əldə etməyi, qazanmağı yox, nəyi isə verməyi, son nəticədə canını da qurban edib əbədi həyata qovuşmağı nəzərdə tutur. Sevgi yolunda çəkilən iztirablar, cövrü cəfa aşiqi mənən zəiflətmir, əksinə, onu kamilləşdirir. *"Yarəb, bəlayi-eşq ilə qıl aşina məni, / Bir dəm bəlayi-eşqdən etmə cüda məni"* – bu yalvarış dolu haray Füzulinin lirik qəhrəmanının dünyanı eşq vasitəsi ilə dərk etməsinin təcəssümü və eşq dərdinin şirin, həyati vacib bir məlhəm olmasının bəyanı idi. Füzulidən sonra gələn şairlər də bu eşq fəlsəfəsinə sadiq qaldılar, ona yeni çalarlar, nəqşlər artırdılar.

Məhəmməd Füzuli təpədən-dırnağa romantik şair idi. Hətta aşiq-məşuqə arasında real münasibətlərdə də romantika bu və ya digər dərəcədə ölçü hissini itirmir.

XVIII əsrdə poeziyada yeni mərhələnin – erkən realizmin görkəmli nümayəndəsi hesab olunan Molla Pənah Vaqif də şeirlərində eşqi, məhəbbəti, gözəlləri daha həyati boyalarla tərən-

nüm etmişdir. Füzuli qələmində dilləndirilən eşqi ilahi bir eşq kimi qiymətləndiririksə, bu fikri Vaqifin tərənnüm etdiyi eşq haqqında söyləyə bilmərik. Vaqif daha çox real, canlı insana bəslədiyi sevgini qələmə almışdır:

*Bulud zülflü, ay qabaqlı gözəlin,*
*Duruban başına dolanmaq gərək.*
*Bir evdə ki, belə gözəl olmaya,*
*O ev bərbad olub talanmaq gərək.*

*Sərxoş durub sarayından baxanda,*
*Ağ gərdənə həmayillər taxanda,*
*Gözə sürmə, qaşa vəsmə yaxanda,*
*Canım eşq oduna qalanmaq gərək.* [6, s.49]

Füzuli ədəbi məktəbinin ənənələri ilə yanaşı, şifahi xalq şeiri və aşıq poeziyasının də mayasından qidalanan Vaqif poeziyasının yenilikçi ruhu və ədəbiyyata gətirdiyi novator ab-hava ayrı-ayrı tədqiqatlarda xüsusi vurğu ilə qeyd edilmişdir. Akademik Nizami Cəfərov yazır: *"Füzuli məşuqənin cövründən-əzab-əziyyətindən şikayətlənir, amma prinsipial cəhət burasındadır ki, cövrü-cəfanı təbii bir hal sayır, hətta məhəbbətin atributu kimi qəbul edir. Vaqif isə belə bir sual verməyə özündə nəinki cəsarət tapır, hələ bunu qanuni haqqı da bilir:*

*Neyçün incidirsən bunca Vaqifi,*
*Nə hasil bu cövrü cəfadan sənə?"* [2, s.259]

Alim həm Füzulinin, həm də Vaqifin bəhs etdikləri anlayışları qarşılıqlı müqayisə edərək hər iki şairin mizac və üslubunu da nəzərə çarpdırmaqla maraqlı elmi nəticələrə gəlmişdir. Belə müqayisələr heç də "konflikt" doğuracaq qiyaslamalar deyildir. Füzuli düşüncə tərzi ilə Vaqif düşüncə tərzi, Nizami Cəfərovun fikrincə, oppozisiya təşkil edir, amma eyni zamanda hər ikisi bir mənbədən təşəkkül tapmışdır. Füzuli düşüncə tərzi Vaqifi mənən qidalandırmışdır.

XIX əsrdə Azərbaycanda yaranan bütün ədəbi məclislərdə Füzuli ruhu və Füzuli şeirinin estetikası yaşayırdı. Şairlər Füzuli şeirlərinə nəzirələr yazır, təxmislər edir, onun kimi şeirdə möcüzələr yaratmağa can atırdılar. Əlbəttə, Füzulidən sonra ikinci Füzuli yetişmədi, lakin bu böyük ustadın eşq fəlsəfəsi bütün şairlər üçün bir "dərs vəsaiti" oldu. Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir, Mirzə Nəsrullah Bahar, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Molla Ağa Bixud, Məhəmmədəli bəy Məxfi, Seyid Əzim Şirvani və onlarla digər şairlərimiz yaradıcılıqlarında Füzuli ədəbi məktəbinin ənənələrini davam etdirmiş, görkəmli ədib Cəfər Cabbarlının sözləri ilə desək, *"Füzulini ötməyə deyil, bəlkə ona yetişməyə və var qüvvələri ilə öz əsərlərini Füzulinin əsərlərinə bənzətməyə və beləliklə, ədəbiyyatı qırıldığı nöqtəyə vardırmağa və orada bərkitməyə çalışırdılar"* [1, s.237-238]. Məsələn, XIX yüzilliyin ən məşhur şairlərindən olmuş və Azərbaycan lirikasında Füzulidən sonra ikinci qəzəl ustası sayılan Seyid Əzim Şirvaninin qəzəlindən aşağıdakı beytlərə nəzər salaq:

*Qoy rəqib etsin mənə əfzun cəfa kim, hər zaman,*
*Bir şikayətçün gedib yar ilə göftar eylərəm.*
*Padişahim, sən məni tək qıl qəbuli-xidmətin,*
*Mən gədayi-kuyin olmaqdan məgər ar eylərəm.*
*Qeyr ilə görmək düşər yadimə, ölləm rəşkidən,*
*Hər zaman kim, kuyi-yarə əzmi-didar eylərəm.*
[8, s.190]

XIX əsrdə yaşamış şairdən misal gətirdiyimiz bu beytlər Azərbaycan divan poeziyasında eşqi tərənnüm edən dolğun, mükəmməl örnəklərdəndir. Adlarını çəkdiyimiz söz sənətkarlarının yaradıcılıqlarında Füzuliyanə cizgilər aydın görünməkdədir. Lakin bunu qətiyyən təqlidçilik nümunəsi hesab etmək olmaz. XIX əsr şairləri, Füzulidən, onun eşq fəlsəfəsindən yaradıcı şəkildə faydalanmış, ustaddan öyrənmək yolu ilə onun eşq haqqındakı fikir və ideyalarını yeni poetik çalarlarla və ifadə vasitələri ilə zənginləşdirmişlər.

XX əsr Azərbaycan poeziyasında da Məhəmməd Füzuli, Molla Pənah Vaqif və Seyid Əzimin şövqlə tərənnüm etdikləri məhəbbət lirikası öz inkişafına dövrün və zamanın ədəbi prosesinin tələblərinə uyğun tərzdə davam etmişdir. Burada ilk növbədə, Əliağa Vahidin qəzəllərindən söz açmaq lazımdır.

*Sevgilim, eşq olmasa, varlıq bütün əfsanədir,*
*Eşqdən məhrum olan insanlığa biganədir.*
*Sevgidir, yalnız məhəbbətdir həyatın gövhəri,*
*Bir könül ki, eşq zövqün duymasa, qəmxanədir.* [4, s.441]

Vahidin qəzəllərinin Füzuli qəzəlləri qədər populyar olmağının sirri nədədir? Uzun müddət tədqiqatçılar Füzuli ilə Vahid arasında müəyyən ayrıntılar, bir-birinə əks olan "fərqlər" axtarmışlar. Təbii ki, Vahid Füzuli deyil, amma, özünün də dediyi kimi, "Füzuli yadigarıdır". Füzuli qəzəllərində olan hissi-assosiativ, ruhi-hiperbolik məzmun, dramatik ehtiraslar, kədər, iztirab motivlərinin qeyri-adi təsviri Vahiddə nəzərə çarpmır, çünki Vahid romantik yox, realist şairdir.

*Bəxtiyar aşiq odur ki, onu cananı sevir,*
*Binəva bülbülünü, öz güli-xəndanı sevir.*
*Mən o zülfün azı yüz dəfə bəlasın çəkdim,*
*Dəli könlüm yenə ol zülfü-pərişanı sevir.*
*...Vahidin ovçuluğu olsa da, insafı da var,*
*Öz kəməndinə düçar etdiyi ceyranı sevir.*
[4, s.435]

Gördüyümüz kimi, Vahid şeiri real hisslər, duyğular üstə köklənib. Ancaq Vahid də əksər qəzəllərində Füzulinin eşq, məhəbbət motivlərini yeni və realist çalarlarla işləmişdir. Daha doğrusu, Füzulinin XVI əsrdə söylədiklərini XX əsr oxucusunun bilik və dünyagörüşünün səviyyəsinə uyğun şəkildə qələmə almışdır. Məsələn, Vahid də Füzuli kimi ölümə üz tutur: *"Eşq cövründən qurtarmaq bir sağalmaz dərd imiş, Mən bu dərdin çarəsin ölməklə asan etmişəm"* [3, s.143]. Yaxud Vahid də Füzuli kimi eşqdə özünü Məcnundan üstün sayır: *"Məcnunu mənəm indiki əsrin, hanı Məcnun? Dillərdə mən ondan daha əfsanəyəm indi"* [3, s.86].

Sevgi lirikası Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Qabil, Əli Kərim, Məmməd Araz, Nəriman Həsənzadə, Cabir Novruz, Vaqif Səmədoğlu, Musa Yaqub, Məmməd İsmayıl, Nüsrət Kəsəmənli, Firuzə Məmmədli və bir çox digər şairlərin yaradıcılığında da önəmli yer tutur və ümumiyyətlə, 1950-2000-ci illər Azərbaycan poeziyasının bir sıra ən gözəl nümunələrinin sevgi şeirləri olduğunu etiraf etmək lazımdır. Süleyman Rüstəmin qəzəlləri, Nəbi Xəzrinin "Dəniz, göy, məhəbbət" silsiləsi, Bəxtiyar Vahabzadənin "Həsrət nəğmələri", Qabilin "Küləkli havalarda, yağışlı havalarda", Əli Kərimin "İki sevgi", "Qayıt", Əliağa Kürçaylının "Belə ola həmişə", İslam Səfərlinin "Bir könül sındırmışam", "Dan ulduzu, bir də mən", Məmməd Arazın "Bir axşamın balladası", Cabir Novruzun "Səni unutmaqdan ötrü", Nəriman Həsənzadənin "Səhər həsrəti", Məstan Günərin bir sıra qoşmaları, Ramiz Rövşənin "Ayrılıq", Nüsrət Kəsəmənlinin "Getmək istəyirsən", "Bir sevgi ağlayır", "Əllərin nə yaman soyuqdur, gülüm", Firuzə Məmmədlinin "Sevgi" şeirləri məhəbbət lirikasının son əlli-altmış ildə nəzərə çarpan, Füzuli ruhunu yaşadan, bu ruhu müasir bədii təfəkkürün işığına bələyən poetik nümunələrdir.

## Nəticə / *Conclusion*

Filologiya elmləri doktoru Gülşən Əliyevanın "Çağdaş poeziya və klassik irs" monoqrafiyasında müasir sevgi lirikasının Füzuli ilə "ünsiyyəti" özünün dolğun elmi şərhini tapmışdır. Tədqiqatçı alim yazır: *"Qeyd etmək lazımdır ki, məhz 70-ci illərdə Azərbaycan poeziyası bir növ, Füzuli intibahı keçirmək, Füzuliyə qayıdış, Füzuli obrazlarından və sənətkarlığından maksimum bəhrələnmək yolunda cəhdlər göstərir"* [5, s.35]. Gülşən Əliyeva Məmməd Araz, Tofiq Bayram, Ramiz Rövşən, Rəfiq Zəka, Musa Ələkbərli, Vaqif Bayatlı, Salam Sarvan və Vaqif Səmədoğlunun sevgi şeirlərinə müraciət edir, Füzuliyə qayıdışı təqlid kimi deyil, bəhrələnmək kimi qiymətləndirir. Məsələn, alim Salam Sarvanın işlətdiyi "dağ" obrazını Füzuli şeirindəki eyni obrazla qarşılaşdıraraq yazır: *"Aydın görünür ki, sələfinin işlətdiyi obrazın çoxmənalılığından uğurla bəhrələnən Salam Sarvan tamamilə orijinal poetik obraz yaratmağa nail olmuşdur"* [5, s.86].

Ümumiyyətlə, Azərbaycan poeziyasında sevgi lirikası köklü ənənəyə malikdir və bu ənənə əsrlər boyu qırılmamış, həmişə yeni və orijinal bədii çalarlarla zənginləşmişdir.

**Ədəbiyyat / *References***

1. Cəfər Cabbarlı. Əsərləri, 4 cilddə (tərt. ed. A.Rüstəmli). – Bakı: Şərq-Qərb, 2005, IV c. – 288 s.
2. Cəfərov, N. Azərbaycanşünaslığa giriş. – Bakı: AzAtaM, 2002. – 599 s.
3. Əliağa Vahid. Seçilmiş əsərləri (tərt. ed. Q.Məmmədli, R.Quliyev, A.Paşayev; ön sözün müəl. S.Quliyeva). – Bakı: Lider, 2005. – 472 s.
4. Əliağa Vahid. Seçilmiş əsərləri, 2 cilddə (tərt. ed. Q.Məmmədli, R.Quliyev, A.Paşayev). – Bakı: Azərnəşr, 1975, II c. – 510 s.
5. Əliyeva, G. Çağdaş poeziya və klassik irs. – Bakı: Azərnəşr, 2000. – 172 s.
6. Molla Pənah Vaqif. Əsərləri (tərt. ed. H.Araslı). – Bakı: Şərq-Qərb, 2004. – 264 s.
7. Paşayev, M.C. Füzuli sənətkarlığı. – Bakı: ADU nəşriyyatı, 1958. – 276 s.
8. Seyid Əzim Şirvani. Seçilmiş əsərləri, 3 cilddə (tərt.ed. S.Rüstəmov). – Bakı: Avrasiya Press, 2005, I c. – 400 s.
9. Səfərli, Ə. Divan ədəbiyyatı sözlüyü. – Bakı: Elm və təhsil, 2014. – 487 s.

## Традиционные мотивы любовной лирики в поэзии Азербайджана XX века

**Акрам Гасанов**
Доктор философии по теологии, доцент
Институт рукописей имени Мухаммада Физули НАНА
E-mail: garibekrem@hotmail.com

**Резюме.** Среди традиционных тем литературы особое место занимает восхваление любви. От первых образцов классической диванной литературы до современных художественных образцов мотив любви проходит через все произведения. Поэты-философы работали со всеми сторонами любви, которую они объясняют как причину сотворения мира и человека, и в разных рассказах, красочных сюжетах и темах наглядно касаются его человеческой жизни, воспитания и т.д., что приносит желаемый эффект.
Говоря о традициях азербайджанской поэзии и лирики, нельзя обойти наиболее используемую тему привязанности и любви. Потому что в нашей поэзии существует непрерывная, сильная традиция любовной лирики. Основа этой традиции была создана в классической поэзии: в «Хамсе» Низами Гянджеви, в его лирических стихотворениях, дошедших до нас, хотя и немногочисленных, в произведениях Имадеддина Насими, Шаха Исмаила Хатаи и, наконец, в «Лейли и Меджнун» Мухаммада Физули, который в газелях своего Дивана сказал: «Любовь – всё на свете».
В статье говорится о традициях любовной лирики в азербайджанской поэзии, творчестве поэтов, которые жили и развивали их в своем творчестве. В ходе исследования использовался историко-сравнительный метод.
**Ключевые слова:** стихотворения, поэзия, любовные мотивы, традиция, поэтический подход